

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 135 (23.777)

*29 iyul 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada əkin dövriyyəsi artmışdır



Muxtar respublikada müasir meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, əkin dövriyyəsinə yeni torpaqların qatılması, keyfiyyətli toxum növlərinin istehsalı, məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi ərzaq təhlükəsizliyinin təmin olunmasına, ümumilikdə, kənd təsərrüfatının inkişafına yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" görülən işlərin davamlılığını təmin etmişdir.

Cari ilin yanvar-iyun aylarında Şahbuz rayonunun Külüs kəndində nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılmış, Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində nasos stansiyasının və boru xətlərinin, qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin, Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir.

Bundan əlavə, Naxçıvan şəhərində və Babək rayonunda Uzunoba Su Anbarı yaxınlığında hər birində bir subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

Ümumilikdə, cari ilin ilk yarım ilində muxtar respublikada 13620 poqonmetr məsafədə kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, 408,3 hektar sahədə torpaqların meliorativ vəziyyətinin və 66,8 hektar sahədə isə torpaqların su təminatının yaxşılaşdırılması işləri aparılmışdır. Bu dövr ərzində 3100 poqonmetr məsafədə sel və daşqınlara qarşı mübarizə tədbirləri həyata keçirilmiş, yeni suvarılan torpaq sahələri 343,5 hektar təşkil etmişdir.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublikada 2021-ci ilin məhsulu üçün ümumi əkin sahəsi 64 min 259 hektar təşkil etmişdir ki, bu da 2020-ci illə müqayisədə 854 hektar çoxdur.

*Muxtar respublikada qəti əkinin dinamikası, hektar*




Ümumi əkin sahəsinin 31824 hektarını və ya 49,5 faizini payızlıq əkin, 26379 hektarını və ya 41,1 faizini yazlıq əkin, 6056 hektarını və ya 9,4 faizini əvvəlki illərin çoxillik otları təşkil edib.

2021-ci ilin məhsulu üçün qeydə alınmış əkin sahəsinin 33697 hektarını və ya 52,4 faizini dənli və dənli-paxlalılar (qarğıdalısız), 2150 hektarını və ya 3,3 faizini dən üçün qarğıdalı, 169 hektarını və ya 0,3 faizini dən üçün günəbaxan, 52,4 hektarını və ya 0,1 faizini tütün, 3470 hektarını və ya 5,4 faizini kartof, 6203 hektarını və ya 9,7 faizini tərəvəz, 2479 hektarını və ya 3,9 faizini bostan bitkiləri, 9982,6 hektarını və ya 15,5 faizini cari ilin çoxillik və birillik otları, 6056 hektarını və ya 9,4 faizini isə əvvəlki illərin çoxillik otları təşkil edib.

*2021-ci ilin məhsulu üçün əkin sahələrinin strukturu*




Ümumi əkin sahəsinin 2248 hektarı və ya 3,5 faizi Naxçıvan şəhərinin, 16234 hektarı və ya 25,3 faizi Şərur, 16172 hektarı və ya 25,2 faizi Babək, 3937 hektarı və ya 6,1 faizi Ordubad, 8213 hektarı və ya 12,8 faizi Culfa, 10158 hektarı və ya 15,8 faizi Kəngərli, 2769 hektarı və ya 4,3 faizi Şahbuz, 4528 hektarı və ya 7 faizi Sədərək rayonlarının payına düşüb.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 261-i 2021-ci ilin yanvar-iyun aylarında olmaqla, ümumilikdə, 3336 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2021-ci ilin yanvar-iyun aylarında 182 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 61 ədədi nağd yolla satılmışdır. Bu dövrdə məhsul istehsalçıları 7542,3 ton mineral gübrə ilə təmin olunmuşdur.

Bitkiçilik sahəsində görülən işlərin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Ərzaq təhlükəsizliyinin təmin olunması üçün, ilk növbədə, şərait yaradılmalı, torpaqlardan səmərəli istifadə olunmalı, texnika və toxum təminatı həyata keçirilməlidir".***

Görülən işlər, həyata keçirilən tədbirlər bol məhsul istehsalı ilə yanaşı, həm də əhalinin məşğulluğunun təmin olunmasına geniş şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## *"Nağdsız ödəyin, hədiyyə qazanın!"* tədbirinin qalibləri mükafatlandırılıb



*Naxçıvan Muxtar Respublikasında ənənə halını alan "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin on beşinci tirajının qalibləri müəyyənləşib. 1 yanvar 2021-ci il tarixdən 1 iyul 2021-ci il tarixədək daha çox nağdsız ödənişlər edən muxtar respublika sakinləri tirajın nəticələrinə görə qiymətli hədiyyələrlə mükafatlandırılıblar.*

Naxçıvan Biznes Mərkəzində hədiyyələrin təqdim olunması ilə əlaqədar keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edilib və nağdsız ödənişlərin həcminin artırılması istiqamətində mühüm tapşırıqlar verilib.

Vurğulanıb ki, 2021-ci ilin ilk 6 ayında ödəniş kartları vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 56 milyon 188 min 728 manata çatdırılıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 15 milyon 905 min 381 manat çoxdur. Bundan əlavə, aparılan işlər nəticəsində əməkhaqlarının nağdsız formada ödənişini təmin etmək üçün 2021-ci ilin birinci yarım ilində özəl sektorda 47 vergiödəyicisi üzrə 333 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilib.

Tədbirdə çıxış edən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Orxan Abdullayev qeyd edib ki, həyata keçirilən tədbirlər nəticəsində nağdsız ödəniş həcmində ilbəil artım müşahidə olunub, əhaliyə göstərilən xidmətlərin sayı artırılaraq elektron hesablaşmaların əhatə dairəsi genişləndirilib.

Diqqətə çatdırılıb ki, iqtisadiyyatın bütün sahələrini effektiv şəkildə əhatə edən POS-terminal şəbəkəsi vasitəsilə aparılan ödənişlərlə yanaşı, internet və digər ödəniş sistemləri ilə həyata keçirilən elektron hesablaşmaların həcminin artması da bu sahədə aparılan tədbirlərin müsbət nəticələridir. Belə ki, 1 iyul 2021-ci il tarixə əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı, ümumilikdə, 1467 ədədə çatdırılıb. Cari ilin ilk 6 ayı ərzində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız ödənişlərin 18 milyon 84 min 459 manatı POS-terminallar, o cümlədən 11 milyon 277 min 571 manatı Naxçıvan şəhəri üzrə, 38 milyon 104 min 269 manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib.

1 iyul 2021-ci il tarixə nağdsız ödəniş infrastrukturunun tərkib hissələri olan bankomatların sayı, ümumilikdə, 115 ədəd, ödəniş terminallarının sayı isə cari ildə 18 ədəd artaraq 97 ədəd təşkil edib.

Qeyd olunan dövrdə muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı isə 275 min 11 ədəd olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin şöbə rəisi Rəşad Əliyev çıxışında nəzərə çatdırıb ki, 6 ay ərzində bank orqanlarından nağdsız ödəniş aparan şəxslər barədə müvafiq məlumatlar alınmaqla və bir sıra amillərə əsasən hədiyyələr meyarlar üzrə qruplaşdırılıb. Belə ki, 1-ci meyar üzrə 400 manatdan 701 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim ediləcək hədiyyələrin dəyəri 35-55 manat arasında müəyyən olunub ki, bu meyarda muxtar respublika üzrə 225 şəxs, o cümlədən Naxçıvan şəhəri üzrə 45 şəxs hədiyyə qazanıb. 2-ci meyar üzrə 701 manatdan 1001 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim ediləcək hədiyyələrin dəyəri 55-70 manat arasında müəyyən olunub ki, bu meyarda muxtar respublika üzrə 119, o cümlədən Naxçıvan şəhəri üzrə 20 şəxs hədiyyə qazanıb.

3-cü meyar üzrə 1001 manatdan çox nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 75-90 manat arasında müəyyən edilib ki, bu meyarda muxtar respublika üzrə 101, o cümlədən Naxçıvan şəhəri üzrə 21 şəxs hədiyyə qazanıb.

Sonra nağdsız ödənişlər sahəsində fəallıq göstərən şəxslərə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, analoji tədbirlər Naxçıvan şəhəri ilə yanaşı, Şərur, Babək, Culfa, Ordubad, Şahbuz, Kəngərli və Sədərək rayonlarında da keçirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Muxtar respublikamızda iqtisadiyyatın dinamik inkişafını şərtləndirən əsas sahələrdən sayılan nəqliyyatın müasirləşdirilməsi daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Artan əhali tələbatına uyğun olaraq yol infrastrukturunun inkişafı ilə bağlı mühüm layihələr reallaşdırılır, yeni yollar salınır, körpülər tikilir, hava, dəmir yolu, avtomobil nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılır, nəqliyyat sektorunun səmərəli idarə olunması təmin edilir.*

## Müasir nəqliyyat infrastrukturu dinamik inkişafa öz töhfəsini verir



Nəqliyyat sahəsi üzrə görülən kompleks işlər sırasında yol infrastrukturunun müasir standartlara uyğun qurulması, xüsusilə diqqət mərkəzində dayanır. 2021-ci ildə də bu istiqamətdə tədbirlər uğurla reallaşdırılır, yeni yollar, körpülər salınır, yol nişanları yenilənir, insanların rahatlığı, nəqliyyatın təhlükəsiz hərəkəti təmin olunur. Belə ki, cari il yanvar-iyun aylarında Culfa-Ordubad magistral avtomobil yolunun, Naxçıvan şəhərində avtomobil yolunun, Şərur şəhərinə giriş və daxili avtomobil yollarının, Ordubad rayonunun Yuxarı Əndəmic-Nüsnüs və Şərur rayonunun Şəhriyar kənd avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması başa çatdırılıb. Hazırda Naxçıvan şəhərində avtomobil yolunun, Çərçiboğan, Dərvişlər, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi, Maxta-Dəmirçi, Babək rayonunda Göynük, Ordubad rayonunda Vənənd-Pəzməri, Aşağı Əndəmic kənd avtomobil yollarının, Culfa şəhərində daxili avtomobil yolunun yenidən qurulması davam etdirilir. Ordubad rayonunun Nüsnüs kəndində bir körpünün tikintisi, bir körpünün təmiri isə uğurla icra olunub.

## I və IV ixtisas qrupları üzrə qəbul imtahanları keçirilib

Dövlət İmtahan Mərkəzi tərəfindən I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları keçirilib. Respublikanın 22 şəhər və rayonunda imtahanların keçirilməsi üçün, ümumilikdə, 68 imtahan binası, 1113 imtahan zalı, 68 ümumi imtahan rəhbəri, 184 imtahan rəhbəri, 1450 nəzarətçi-müəllim, 140 buraxılış rejimi əməkdaşı, 68 bina nümayəndəsi ayrılıb. İmtahanlarda, ümumilikdə, 14 min 426 abituriyent iştirak edib ki, onların 9421-i I, 5005 nəfəri isə IV ixtisas qrupları üzrə imtahan verib.

Naxçıvan Muxtar Respublikasında imtahanlar Naxçıvan şəhərində 4 imtahan binasında təşkil edilib. İmtahanlarda, ümumilikdə, 883 abituriyent iştirak edib. Onların 721-i I, 162-si IV ixtisas qrupları üzrə imtahan verib. İmtahanların keçirilməsi üçün 74 zal, 12 rəhbər, 95 nəzarətçi ayrılıb. Abituriyentlərin rahat imtahan verməsi üçün hər bir şərait yaradılıb.

İmtahanın nəticələri *www. dim.gov.az* saytında elan ediləcək.

***Xəbərlər şöbəsi***

# Vətən keşikçilərinin sağlamlığı və xoşbəxt gələcəyi təmin edilib

*Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənməkdədir. Müzəffər ordumuz öz rəşadət və qüdrətini 44 günlük Vətən müharibəsində qazanılan Böyük Qələbə ilə bir daha təsdiqlədi ki, bunun da əsasında ordu quruculuğu siyasəti dayanır.*



Ordu quruculuğu sahəsində aparılan tədbirlər muxtar respublika ərazisindəki bütün hərbi hissə və birləşmələrdə də öz əksini tapıb, Silahlı Qüvvələrin müasir standartlara uyğunlaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl işlər görülüb. Son illər muxtar respublikanın etibarlı müdafiə təminatı məqsədilə mühüm tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Ötən illər ərzində muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində 200-dək hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Bir sözlə, Əlahiddə Ümumqoşun Ordu güclü maddi-texniki bazası, müasir silah və texnikaları, peşəkar hərbçi kontingenti ilə muxtar respublikanın təhlükəsizliyinin etibarlı qarantıdır. 2018-ci ilin mayında 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi Əlahiddə Ümumqoşun Ordunun gücünün praktik nəticəsini ortaya qoydu. Qarabağda torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığımız haqlı mübarizəmizdə də Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları və digər birləşmələrin hərbçiləri fəal iştirak etdi, şəhidlər verdi, böyük fədakarlıq göstərdilər. Bütün bunlar diyarımızda müasir hərbi infrastrukturun yaradılması və peşəkar hərbçi kadrların yetişdirilməsi istiqamətində atılan məqsədyönlü addımların nəticəsi kimi qürur doğurur.



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikaya səfəri zamanı Naxçıvanda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib:

***“Ümumiyyətlə, deyə bilərəm ki, Naxçıvanın müdafiə potensialının möhkəmləndirilməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur”.***





Cari ildə də bir neçə hərbi təyinatlı obyektin istifadəyə verilməsi muxtar respublikada ordu quruculuğunun davamlılığından xəbər verir. Aparılan quruculuq işləri zamanı şəxsi heyətin sağlamlığı da diqqətdə saxlanılır, müasir xəstəxanalar və tibb məntəqələri istifadəyə verilir. Bu il mayın 10-da istifadəyə verilən Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı ölkəmizdə ən böyük və qabaqcıl hərbi tibbi müəssisələrdən biri kimi müasir təchizatı ilə diqqəti cəlb edir. Ali Baş Komandan cənab İlham Əliyevin muxtar respublikaya səfərində Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışında da iştirakı bu sahəyə ayrılan böyükmiqyaslı diqqət və qayğını bir daha təsdiq edir. Muxtar respublikada inşa olunan ən böyük səhiyyə müəssisəsi kimi hərbi hospital müasir texnologiyaya əsaslanan təminata malikdir. Ali Baş Komandanımızın da dediyi kimi: ***“Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində, hərbçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılmasında bu obyektlərin böyük önəmi var. Çünki hərbçilərin indi xidmət şəraiti yaxşılaşır, yeni hərbi hissələr tikilir. Son illər ərzində Naxçıvanda, demək olar ki, bütün hərbi hissələr yenidən quruldu və olmayan bir çox hissələr yaradılmışdır. Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışı da əlamətdar hadisədir. Çünki bu, Naxçıvan Muxtar Respublikasının ən böyük tibb müəssisəsidir, çarpayıların sayına görə Mərkəzi Xəstəxanadan da böyükdür”.***

2013-cü ildən Əlahiddə Ümumqoşun Ordunun tabeliyində fəaliyyət göstərən Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı üçün tikilmiş yeni bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Mərkəzdəki 426 otaq bütün tibbi prosedurların həyata keçirilməsi üçün ən müasir və zəruri tibbi-texniki imkanlara malikdir. Hospitalın ümumi sahəsi 56 min 300 kvadratmetr ərazini əhatə edir. Texnologiyanın ən son yeniliklərinin tətbiq olunduğu 290 çarpayılıq hospital 1 stasionar şöbəni, 11 stasionar və 13 yardımçı bölməni əhatə edir. Bina mərkəzləşdirilmiş istilik, tibbi tullantıların yandırılması üçün qurğu, əməliyyatxanalarda bakterioloji süzgəcli havalandırma, soyutma, elektrik və su sistemləri ilə təchiz olunub.

Hərbi hospitalın komandiri, polkovnik Niyaməddin Seyidov bu böyük tibb ocağı ilə tanışlıq zamanı məlumat verdi ki, burada radiologiya, tibbi ekspertiza, fizioterapiya, travmatologiya, anesteziologiya, reanimasiya, poliklinika, intensiv terapiya, qəbul, əməliyyat, kardiologiya, cərrahiyyə, urologiya, psixonevrologiya, LOR və üz-çənə cərrahiyyəsi, laboratoriya və digər bölmələr fəaliyyət göstərir. Şöbə və bölmələrin hər biri müayinə, müalicə və mürəkkəb tibbi əməliyyatların keyfiyyətlə aparılması üçün ən müasir avadanlıqlarla təchiz edilib.

Hospitalın həkimi, cərrah Cavid Qənbərli bildirdi ki, ən son texnologiyalara əsaslanan müasir avadanlıqlar və yüksəkixtisaslı peşəkar kollektiv burada nümunəvi xidmətin təşkilini, şəxsi heyətin sağlamlığının etibarlı qorunmasını təmin edir. Həkim və tibb işçiləri 24 saatlıq xidmətlə hərbi qulluqçulara və ailə üzvlərinə tibbi yardımın göstərilməsini, onların müayinə və müalicəsini yüksək səviyyədə təşkil edirlər.

Bir sözlə, ölkənin ən böyük və qabaqcıl hərbi təyinatlı tibb müəssisələrindən biri kimi diqqəti cəlb edən Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında dövlətimizin ordu quruculuğuna göstərdiyi xüsusi diqqətin, əsgər və zabitlərimizin, onların ailə üzvlərinin sağlamlığına qayğısının əyani təzahürüdür.



Hospitalla tanışlıq zamanı bu böyük səhiyyə ocağında müalicəsini davam etdirən Vətən müharibəsi qaziləri ilə də görüşdük. Böyük qürur hissi ilə onların keçdiyi şərəfli döyüş yolunu öz dillərindən dinlədik, qanını, canını Vətən yolunda fəda edən, bizə qələbə yaşadan qəhrəmanlarımızın səhhəti ilə maraqlandıq. Vətən müharibəsi iştirakçısı, qazi Elşən Məmmədov partlayış zamanı onurğa sütununun qəlpə yaralaması diaqnozu ilə hospitalda müalicəsini davam etdirir. O qeyd etdi ki, odlu-alovlu cəbhədən qayıtdıqdan sonra qarşılaşdıqları isti münasibət qürur hissini birə-beş artırır. Hospitalda yaradılan şərait müalicənin daha qısa müddətdə və effektiv aparılmasına kömək göstərir. Qazimiz yaradılan şəraitə və göstərilən qayğıya görə dövlətimizə və eləcə də qayğıkeş tibb işçilərinə minnətdarlıq etdi.

Vətənimizin digər qəhrəman övladı, İkinci Qarabağ müharibəsi qazisi Rauf Salahov da sinəsini düşmənə sipər edərək torpaqlarımızın işğaldan azad olunmasında rəşadət göstərib. Hər iki ətrafın çoxsaylı qəlpə yaralanması diaqnozu ilə hospitalda müalicəsi davam etdirilir: – Həkimlər və tibb işçiləri bizə çox gözəl qayğı göstərirlər. Mənim üstümdə çox əziyyətləri var. Sağlamlığım üçün mənə dəstək olan hər bir kəsə təşəkkür edirəm. Dövlətimizin qayğısını daim üzərimizdə hiss edirik. Həkimlər sağlamlığımızın bərpasına hərtərəfli kömək edirlər. Hərbi hospitalda yaradılan şərait bizim tezliklə sağalıb hərbçi yoldaşlarımızın yanında öz yerimizi almağımıza böyük əminlik yaradır. Biz də bu qayğıya cavab olaraq ordu sıralarına qayıtdıqdan sonra xidmətimizi yenə də uğurla davam etdirəcək, lazım gələrsə bu yolda canımızı belə əsirgəməyəcəyik.

Bizə Qarabağın azad olunması sevincini yaşadan hərbçilərimiz, şəhid və qazilərimiz xalqımızın qürur mənbəyidir. Onların qəhrəmanlıqları bizi əzəli torpaqlarımıza qovuşdurdu. Bu gün torpaqlarımızın ərazi bütövlüyünün və sərhədlərimizin qorunması əmin əllərdədir. Müstəqilliyimizin qarantı olan qəhrəman hərbçilərimizin və onların ailə üzvlərinin sağlamlığı da etibarlı təmin edilib. Siz bizə qanınız, canınız bahasına bütöv və qüdrətli Azərbaycanı bəxş etdiniz. Dövlətimiz də sizi və övladlarınızı sağlam həyat və xoşbəxt gələcəklə təmin edir, əziz qəhrəman hərbçilərimiz.

*Arzumuz budur ki, əsgər və zabitlərimizin heç birinin yolu bu müasir səhiyyə ocağından düşməsin. Ancaq düşərsə belə, hər biriniz arxayın və əmin olun ki, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının müasir şəraiti və nümunəvi xidməti sizin və ailənizin sağlamlığının etibarlı qarantıdır.*

**Gülcamal TAHİROVA**

*Ailə təsərrüfatlarımız*

# Zəhmətkeş əllərin sorağı ilə

Son illər muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən tədbirlər sırasında heyvandarlığın inkişafı mühüm yer tutur. Ailə təsərrüfatlarının yaradılması, damazlıq işinin düzgün qurulması və cins tərkibinin yaxşılaşdırılmasına yardım məqsədilə heyvandarlıqla məşğul olan fermerlərə banklar və digər kredit təşkilatları tərəfindən müxtəlif kreditlərin verilməsi təmin edilir, baytarlıq xidmətlərini müasir tələblər səviyyəsində təşkil etmək məqsədilə bu sahənin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür. Görülən işlər məhsul istehsalının artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Bunun nəticəsidir ki, kənd təsərrüfatında həyata keçirilən məqsədyönlü siyasət adıçəkilən sahənin inkişafına öz müsbət təsirini göstərir və artıq bir sıra ərzaq məhsulları ilə təminat sırf daxili istehsal hesabına həyata keçirilir.

Təsərrüfat həyatının özəyini təşkil edən maldarlıq xalqımızın ən qədim məşğuliyyətlərindən biri kimi bu gün də ən gəlirli sahələrdən sayılır. Bu sahə, sözsüz ki, gəlirli olması ilə bərabər, həm də özündə bol zəhməti, əziyyəti birləşdirir. Bu mənada, biz də zəhmətkeş əllərin sorağı ilə yolumuzu bu dəfə Kəngərli rayonunun Qarabağlar kəndinə saldıq.



Zəngin təbiəti ilə fərqlənən Qarabağlar kəndi Kiçik Qafqaz silsiləsinin ətəyində əlverişli və səfalı bir ərazidə yerləşir. İki min nəfərə yaxın əhalisi olan bu kəndin böyük bir qismi bizim də qonağı olduğumuz Cabbarovlar ailəsi kimi öz dolanışığını bağçılıq, bostançılıq, arıçılıq və maldarlıqla təmin edir. Ailənin böyüyü, yaşı 55-i ötmüş Eldar kişi 10 ildən çoxdur ki, atababasından görüb-götürdüyü maldarlıq təsərrüfatı ilə məşğul olur. Gününün böyük bir qismini elə təsərrüfatında min bir zəhmətlə saxladığı mal-heyvanına, toyuq-cücəsinə, qoyun-quzusuna baxmaqla keçirir. Belə zəhmət tələb edən işdə onun ən yaxın köməkçiləri isə ailə üzvləridir. Bu qonaqpərvər ailə ilə həmsöhbət olarkən öyrəndik ki, onlar maldarlıq təsərrüfatı ilə yanaşı, bağçılıq-bostançılıqla da məşğul olurlar. Bir sözlə, Eldar kişinin süfrəsinə qoyduğu bütün nemətlər ailənin zəhmətinin bəhrəsidir.

Müsahibimiz deyir ki, kəndimizdə hansı qapını döysən, orada təsərrüfatla məşğul olan zəhmət adamlarını görərsən. Kimisi bağçılıq, bostançılıq, kimisi arıçılıq, quşçuluq, kimisi də bizim kimi maldarlıqla məşğul olur. Yəni hər kəs öz halal ruzisini təsərrüfatdan çıxarır. Mən də bu işə 2 baş inəklə başlamışam. Ötən ilin fevral ayında əldə etdiyim kreditlə aldığım 3 baş simmental cinsi olan inəklə birlikdə təsərrüfatımda bu gün, ümumilikdə, 10 baş südlük inək var. Hər gün 30-40 litrə yaxın süd istehsal edirik. Keyfiyyətli və təmiz məhsullarımız Naxçıvanla yanaşı, digər şəhərlərdə də özünə xeyli alıcı kütləsi qazanıb.

Təsərrüfatçı illərin qazandırdığı təcrübə ilə heyvandarlığın qayğılarından danışaraq qeyd edir ki, bu sahə həm də özündə böyük məsuliyyət daşıyır. Çünki bir heyvanın tələf olması təsərrüfatçı üçün ağır itkidir. Bu səbəbdən heyvandarlıqla məşğul olan təsərrüfatçılar yetişdirmə işlərində iki əsas qaydaya ciddi riayət etməlidirlər. Onlardan birincisi saxlanılan heyvanın sağlamlığıdır. Erkən yaz dövründə heyvanlar qışdan yenicə çıxdıqları üçün xəstəliyə yoluxma riski yüksək olur. Bu səbəbdən təsərrüfatçılar yaz aylarının gətirdiyi müxtəlif xəstəliklərin əleyhinə peyvəndlərdən istifadə etməlidirlər.

İkinci məsələ isə heyvanların yaxşı və sağlam qidalanmasıdır. Mal-qaranın məhsuldar olması düzgün bəslənmədən asılıdır. Qidalanmanın düzgün aparılması da birbaşa heyvanın sağlamlığı ilə əlaqəlidir.

Eldar Cabbarovla başladığımız səmimi söhbətə oğlu Kirman Cabbarovla davam edirik. Müsahibim deyir ki, arzularına çatmaq üçün hər zəhmətə qatlaşmalısan, insan zəhmət çəkib öz işi ilə məşğul olursa, mütləq bəhrəsini görür. Biz də bu işdə atamıza yaxından kömək edirik. Həyətimizdə 20-yə yaxın xırdabuynuzlu heyvanımız, 20-30 toyuq-cücəmiz var. Heyvanlarımızın yem tədarükünü 3 hektar yoncalıq sahəmizdən əldə edirik. İstehsal etdiyimiz pendir, süd, qatıq, şor, yağ kimi keyfiyyətli məhsullarımız özünə xeyli alıcı qüvvəsi toplayıb. Bir əsas məsələni də qeyd etmək lazımdır ki, iş üçün vətəndaşa daim dövlət qayğısı gərəkdir. Bunu da muxtar respublikamızın hər yerində görmək mümkündür. Biz də bu qayğıdan istifadə edərək yaxın vaxtlarda təsərrüfatı genişləndirmək, heyvanların sayını artırmağı düşünürük.

Sevgi, torpaq və zəhmət... Bunların vəhdətindən ortaya halal qazanc, xoşbəxtlik, ruzi-bərəkət çıxır. Qonağı olduğumuz Cabbarovlar ailəsinin timsalında bunun bir daha şahidi olduq. Şahid olduq ki, insan nə olursa-olsun, çöhrəsindən təbəssümü, süfrəsindən halal qazancı əskik etməməlidir. Biz də bu zəhmət adamlarına sağlam həyat, bol qazanc, uzun ömür arzu edirik.

**Məcid RƏŞADƏTOĞLU**

## Böyük zəfəri Azərbaycanın qədim və gözəlliklər diyarı Naxçıvanda birgə qeyd etmək qürurvericidir

***Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı, ümumilikdə, 200-dən çox gəncin iştirakı ilə muxtar respublikamızda keçirilən "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi" rəngarəng və bir-birindən yaddaqalan proqramla davam edir. Proqram çərçivəsində gənclər Batabat yaylağı və Ağbulaq İstirahət Mərkəzi ilə yaxından tanış olublar. Batabat yaylağı haqqında çox eşitdiklərini bildirən gənclər ilk olaraq Zorbulağa gediblər. Elə biz də Batabat gölünün ətrafında, bulaq başında onlarla həmsöhbət olduq.***



İlk müsahibimiz Türkiyə Respublikasının Diyarbəkir vilayətindən düşərgəyə qatılan *Mərvə Özkaya*dır. O deyir ki, Azərbaycana, o cümlədən də Naxçıvana ilk dəfədir səfər edir. Gəldiyi gündən burada onlara göstərilən qayğıdan çox məmnundur:

– Səfərimizin əsas məqsədi qardaş ölkənin gəncləri ilə bir araya gəlmək, Zəfər tariximizdən sonrakı əlaqələrimizi daha da möhkəmləndirməkdir. Səfər zamanı Naxçıvanın tarixi yerlərini, muzeylərini gəzdik, qədim tarixiniz haqqında ətraflı məlumat aldıq. Tarixinizin izlərini canlı yaşatmağınızla öyünməyə haqqınız vardır.

Zorbulaq haqqında isə deyirlər ki, soyuqluğundan onun suyunda əlini davamlı saxlaya bilmirsən. Biz də iştirakçılar ilə bunu yoxladıq. Hətta yarış da keçirdik. Əlini daha çox suda saxlayan qalib elan olundu. Buradan Ağbulaq İstirahət Mərkəzinə yola düşəcəyik. Səfərimizin ilk başladığı gün bələdçilər gedəcəyimiz əraziləri dedikcə bizdə xüsusi maraq oyanırdı: görəsən, necə bir yerdir, nələrlə qarşılaşacağıq? Amma artıq getdiyimiz hər bir bölgədə rastlaşdığımız aura, insanların səmimiyyəti bizdə əminlik yaradıb ki, bundan sonra da üz tutacağımız məkanlarda da ecazkar mənzərələr, qonaqpərvər insanlar ilə qarşılaşacaq, çoxlu dostlar qazanacağıq. Buradakı qardaşlıq, səmimiyyət, hər şey çox gözəldir. Vətənimizə qayıdanda ən çox yaddaşlarımızda yaşayacaq isə qalib Azərbaycan xalqı olacaq.

Növbəti müsahibim *Firdevs Karadağ*la isə kənd turizminin inkişafına, gözəl diyarımızın füsunkar təbiətinin, təmiz ekologiyasının təbliğinə, insanların mədəni istirahətinə xidmət edən Ağbulaq İstirahət Mərkəzində həmsöhbət oluram. İlahiyyat fakültəsinin tələbəsi olan, Ərzincandan buraya üz tutan Firdevs Zəfər Düşərgəsinə qatılan əksər gənclər kimi ilk dəfədir, buradadır:

– Naxçıvan başdan-başa təbiət muzeyidir, – deyə bilərəm. Xüsusilə havası çox gözəldir. Şəhəriniz isə təmiz və səliqəlidir. Düşərgənin məqsədi iki ölkə arasındakı gənclərin əlaqəsini möhkəmləndirmək, adından da göründüyü kimi



Zəfərimizi bir daha burada azərbaycanlı gənclərlə birlikdə qeyd etmək idi.

Biz buraya gəlməzdən əvvəl 44 günlük Vətən müharibəsində yaralanan qazilərlə görüşdük. Bu bizi çox təsirləndirdi. Dostlarımızın içərisində sevinc, qürur göz yaşlarını saxlaya bilməyənlər də oldu. Onlar bizə döyüş xatirələrini danışdılar, sanki o günləri yenidən birgə yaşadıq. Türk xalqı tarixən qardaş ölkənin yanında olub. Bu Vətən savaşında da belə idi, bundan sonra da belə olacağından əminik. Qarabağ Azərbaycanın olub, bu gün də Azərbaycanındır və gələcəkdə də bu reallığı heç bir güc dəyişə bilməz.

Bundan başqa, onu deyə bilərəm ki, burada tarixi abidələrlə, rəsm əsərləri ilə tanış olduq. Rəsm əsərlərinə heyran qaldıq. İndi isə Ağbulaq İstirahət Mərkəzindəyik. Bu cür gözəl bir yerdə belə bir şəraitin yaradılması dövlətinizin insanlara göstərdiyi qayğının nümunəsidir. Xizək mərkəzi və kanat xətti mükəmməldir, təmiz dağ havasının təsiri ilə bu cür möhtəşəm yerdə istirahət etmək çox gözəldir. Əminəm ki, Vətənimizə qayıdanda yaxınlarımıza gəlib Naxçıvanı görməyi tövsiyə edəcəyik.

Diyarımızla bağlı fikirlərini bizimlə bölüşən *Əbubəkir Akdağ* deyir ki, Naxçıvana gəlmək xəbərini eşitdikdə çox şad oldum. Çünki Oğuz-türk yurdunun ayrılmaz bir parçası olan qədim bir diyara gedirdim. Bura ilk dəfə gəlsəm də, heç bir yadlıq, özgəlik hiss etmirəm. İnsanların səmimiyyəti, istiqanlılığı, ən əsası da qonaqpərvərliyi əsrlərin qardaşlığının, dostluğunun bariz nümunəsidir. Naxçıvanı gəzib yaxından tanış olduqca bura daha çox bağlanıram. Şəhərin sakitliyi, təmizliyi, səliqəsahmanı insanın zövqünü oxşayır. Bu gün tam əminliklə deyə bilərik ki, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə münasibətləri daim güclənir. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması Azərbaycan və Türkiyə arasında əlaqələrin daim inkişaf etməsinə şərait yaradır. Səfər çərçivəsində bir daha dahi şəxsiyyət Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətləri biz türk gənclərə göstərilən diqqət və qayğıda da aydın hiss etdik. Mustafa Kamal Atatürkün şəhər mərkəzində ucaldılan büstü qarşısında bu əbədi dostluğun bir daha şahidi olduq.

Gəncə Şəhər Gənclərin İnkişaf və Karyera Mərkəzinin əməkdaşı *Həsən Xıdırov* Türkiyə və Azərbaycan dostluğunun gənclərin qarşısında açdığı geniş imkanlar və perspektivlərdən söhbət açaraq bildirdi ki, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbəri tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Sözsüz



ki, bu dostluq əlaqəsinin ən gözəl nəticəsini məhz Zəfər düşərgəsində iştirak edən gənclərin timsalında görmək mümkündür. Əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Bir əsas məsələni də qeyd etmək istərdim ki, Türkiyə həmişə olduğu kimi, qardaşlarını haqlı davasında da yalnız qoymayaraq bütün dünyaya Qarabağın Azərbaycanın əzəli torpaqları olduğunu, bu haqq davasında heç bir ölkənin Azərbaycana mane ola bilməyəcəyini bəyan etdi. Hələ Türkiyənin Ermənistan ilə sərhədlərinin bağlanması o vaxt Azərbaycana göstərilən həmrəylik aktının təcəssümü idi. Müharibənin ilk günlərindən Türkiyə Respublikasının Prezidenti açıqlamalar verdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bütün dünyaya bir mesaj idi ki, kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın. 44 günlük Vətən müharibəsi dövründə mənəvi dəstək olmaq üçün Türkiyənin müdafiə və xarici işlər nazirləri, digər yüksək vəzifəli rəsmilər dəfələrlə ölkəmizə səfər edərək yanımızda olduqlarını nümayiş etdirdilər və birmənalı olaraq Azərbaycana çox böyük siyasi və mənəvi dəstək verdilər. İnanırıq ki, bundan sonra da sağlam təməllər üzərində qurulub-yaradılan bu münasibətlər hər iki qardaş ölkənin gəncləri tərəfindən inkişaf etdirilərək gələcək nəsillərə bir dəyərli ərməğan olacaq.

*İnci Vüqarlı* da Zəfər Düşərgəsinə qatılanlar sırasındadır. Hüquq fakültəsinin 3-cü kursunda təhsil alan İnci özü əslən muxtar respublikamızın Şahbuz rayonundandır. Ona görə də bu yerlərə daha yaxşı bələddir:

– İlboyu zirvəsi qarla örtülü olan dağlar, könül açan sərin yaylaqlar, zəngin və nadir landşafta malik ovalıqlar, çaylar, çeşmələr, bulaqlar, canlı və cansız təbiət inciləri qərinələrdir ki, Azərbaycanı dünyada tanıdır. Belə bir gözəllik məskəni olan yurdumuza insan əli ilə yeni gözəllik naxışlarının da vurulması yurd yerlərimizdə təkrarolunmaz və heyrətamiz mənzərələr yaradıb. Bütün bu yeniliklərə keçmişimizi özündə yaşadan milli adət-ənənələrimiz də xüsusi bir gözəllik verir. Bu yerlərdə dəfələrlə olmağıma baxmayaraq, bugünkü səfərimin mənim üçün başqa dəyəri var. Çünki bu gün burada qardaş ölkənin gəncləri ilə birlikdəyik. Bu gün biz Zəfər tariximizdən sonra qürurla, alnıaçıq, üzüağ şəkildə hər kəsin qarşısına çıxa bilirik. Belə bir düşərgənin məhz Naxçıvanda təşkil olunması isə mənim üçün daha da ürəkaçandır. 44 günlük müharibə dövründə də Naxçıvan gəncləri öz qanları ilə tarix yazanların arasında oldular, şəhidlər verdik. Qalib gəldiyimiz üçün bu gün qardaş ölkənin gəncləri də ən az bizim qədər sevincli və qürurludurlar. Biz də Azərbaycan tarixi, memarlığı, adət-ənənələrimiz haqqında onlara daha çox məlumat verməyə çalışırıq.

*Düşərgə iştirakçılarının təəssüratlarından gəldiyimiz ümumi qənaət o oldu ki, onlar Böyük Zəfəri Azərbaycanın qədim və gözəlliklər diyarı Naxçıvanda birgə qeyd etməkdən qürur hissi keçirirlər.*

**✍ Telli MƏMMƏDOVA**
**✍ Məcid RƏŞADƏTOĞLU**







## Epiqraf alimdən Naxçıvanşünaslığa yeni töhfələr

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin səmərəli elmi və ictimai fəaliyyəti yeni nəsil tədqiqatçılar, vətənpərvər gənclər üçün əsl nümunədir. Onun apardığı uzunmüddətli tədqiqatlar müxtəlif kitab və monoqrafiyalarda, elmi və publisistik məqalələrdə əksini tapmışdır. 30-a yaxın kitab və monoqrafiya müəllifi olan alimin cari ildə daha 4 əsəri nəşr olunub. Bu əsərlər milli tarix elmini zənginləşdirməklə yanaşı, Naxçıvanşünaslığa yeni töhfədir.




Epiqrafik abidələr və onların tədqiqi tarixindən bəhs edən "Naxçıvanda epiqrafik tədqiqatlar" adlı yeni monoqrafiya Naxçıvan şəhərində, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonlarının bir sıra yaşayış məskənlərində aparılan epiqrafik tədqiqatların nəticələrinə həsr olunub. AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin tövsiyəsi ilə çap edilən monoqrafiyanın elmi redaktoru akademik İsmayıl Hacıyev, rəyçiləri isə dosentlər Elbrus İsayev, Məmməd Əliyev və İlhami Əliyevdir. Monoqrafiya ön söz, 8 başlıq, istifadə olunmuş ədəbiyyat siyahısı və epiqrafik abidələrin fotoşəkillərinin albomundan ibarətdir. Naxçıvan Muxtar Respublikası ərazisində 600-dən artıq müxtəlif təyinatlı kitabənin indiyədək qeydə alınaraq tədqiq olunduğuna diqqətçəkən müəllif bildirir ki, hazırda epiqrafik abidələrin öyrənilməsi istiqamətində işlər davam etdirilir.




Əsərdə tədqiq olunan abidələrin qeydə alındığı Vənənd, Gənzə, Dəstə, Xaraba Gilan, Saltaq, Qarabağlar, Xıncab, Şahbuzkənd, Qaraboya, Kükü və başqa kəndlərin tarixi haqqında yığcam məlumat verilərək kitabələrin tarix-mədəniyyət abidələri kimi əhəmiyyəti açıqlanır. Professor F.Səfərli qeyd olunan toponimlərin elmi izahını verməklə yanaşı, həmin yaşayış yerlərinin yaranması ilə bağlı tarixi fakt və fikirləri oxuculara təqdim edir. Kitabə mətnlərinin Azərbaycan dilində tərcümələrinin, eləcə də təsvirlərinin verilməsi məlumatların asan anlaşılması və vizual təsəvvürün formalaşmasında olduqca əhəmiyyətlidir. 100-dən artıq elmi mənbədən istinadların yer aldığı əsərdə Gürcüstan Dövlət Muzeyində nümayiş etdirilən Ordubad bölgəsinə aid iki sənduqə tipli xatirə abidəsi haqqında məlumatlar da əksini tapıb.

"Qarabağ müharibəsinin cəhrili şəhidləri" kitabı dünyanın iri dövlətlərinin havadarlığı ilə hərəkət edən ermənilərin tarixi Azərbaycan torpaqlarında məskunlaşdırılması, onların Azərbaycana qarşı ərazi iddialarının başlanması və bu iddiaları həyata keçirmək üçün xalqımıza qarşı törədilən soyqırımı və deportasiyalardan bəhs edir. 1988-ci ildə ortaya atılan qondarma Dağlıq Qarabağ problemi ilə başlayan I və II Qarabağ müharibələrinin nəticələrindən, Babək rayonunun Cəhri qəsəbəsində böyüyüb boya-başa çatan, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanlardan bəhs edilir. Burada mayor Rasim Məmmədov, baş leytenant Cəfər Cəfərov, əsgərlər Qulam Quliyev, Qoşqar Sadiqov, Qadir Məhərrəmov, Niyaməddin Bayramov, Seyran Hənifəyev və Xansu Qurbanovun tərcümeyi-halı, keçdikləri şərəfli döyüş yolu haqqında ətraflı məlumat verilir.

Alimin çapdan çıxan növbəti əsəri ingilis dilində nəşr olunan "Prominent persons on the epigraphic monuments of Nakhchivan" (Naxçıvanın epiqrafik abidələrində görkəmli şəxsiyyətlər) adlı monoqrafiyadır. Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində işıq üzü görən nəşrdə muxtar respublika ərazisində günümüzə qədər gəlib çatmış müsəlman epiqrafikası abidələrinin təqdim etdiyi məlumatlar əsasında orta əsrlər zamanı Azərbaycan dövlətlərinə rəhbərlik etmiş 10 hökmdar və 97 görkəmli şəxsiyyət haqqında məlumat verilir. Tarix ixtisası tələbələri və tədqiqatçılar, eləcə də bu sahə ilə maraqlananlar üçün nəzərdə tutulan kitabın xarici dildə nəşri onun təkcə ölkəmizdə deyil, başqa ölkələrdə də oxunması, Naxçıvan və naxçıvanlı mütəfəkkirlər haqqında məlumatları daha geniş oxucu kütləsinə çatdırmaq məqsədi daşıyır.

Naxçıvan memarlıq məktəbinin, Əcəmi yaradıcılığının şedevrlərindən biri olan Yusif Küseyr oğlu türbəsindən bəhs edən eyniadlı kitabça alimin 2021-ci ildə nəşr olunan sayca dördüncü əsəridir. Burada abidənin strukturu, üzərindəki kitabələrin izahı təfsilatlı şəkildə qeyd olunur. Bildirilir ki, el arasında "Atababa günbəzi" adlanan türbə Naxçıvanın qüllavarı türbələri içərisində xronoloji cəhətdən ən qədim abidədir. Orijinal quruluşuna görə fərqlənən abidənin bərpadan öncəki və sonrakı fotoşəkillərinin yer aldığı kitabça həm də tariximizə, mədəniyyətimizə, tarix-memarlıq abidələrimizə göstərilən dövlət qayğısının ən bariz nümunəsidir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Zəka, məntiq və strategiya oyunu – şahmat




***Bu yazıda tarixi 1500 il əvvələ gedib çıxan qədim bir oyundan – şahmatdan, onun necə yaranmasından, necə inkişaf etməsindən və hazırkı vəziyyətindən bəhs edəcəyik. Elə isə "imperatorların oyunu" adlandırılan, haqqında yüzlərlə əsərlər yazılan bu oyunun tarixinə nəzər salaq.***

Şahmat iki oyunçu arasında oynanılan zəka oyunudur. Bu oyun üçün şahmat taxtası və fiqurların olması kifayətdir. Oyun əvvəlcədən qəbul edilmiş qaydalar əsasında oynanılır. Fiqurların necə hərəkət edəcəyi və özəllikləri bəllidir. Məqsəd öz fiqurlarını hərəkət etdirməklə qarşı tərəfi mat etmək, yəni şahını "ələ keçirməkdən" ibarətdir. Şahmat farsca "şah" və "mat" sözlərindən yaranıb. Mənası isə "hökmdar öldü" deməkdir.

Bu idman növü 1500 il öncə Hindistanda yaranıb. Şahmatın yaranma hekayəsi isə belədir: o dövrdə oyunlara marağı olan bir şah varmış. Ona təqdim olunan oyunlardan sıxılan şah əyanlarından əylənəcəyi, həm də qarşısındakı ilə mübarizə apara biləcəyi bir oyun istəyir. Hökmdara bir neçə oyun təqdim olunsa da, onun diqqətini biri çəkir. Bu, riyaziyyat müəlliminin hazırladığı və "çaturanq" adını verdiyi oyun olur. 64 xananın yarısının qara, yarısının isə ağ rənglərdən ibarət olduğu və sadə bir taxta lövhə üzərində oynanılan oyunda şahlar tərəfindən idarə olunan iki ordu var. Həmin ordular "müharibə edərək" qarşı tərəfin şahını "ələ keçirməyə" çalışır. Bəli, bu oyun indiki adı ilə şahmatdır.

Şərq poeziyasının klassikləri Xaqani, Nizami, hətta Füzuli və digər mütəfəkkirlər də əsərlərində şahmatdan bəhs etmişlər. Dramaturq Mirzə Fətəli Axundzadə 1864-cü ildə qələmə aldığı "Şətrənc oyunu" şeirində şahmat oyununun qaydalarını poetik dildə vermişdir:

*Bir şah, bir vəzirdir – iki fili-nər,*
*İki at, iki top durub səfərbər.*
*Səkkiz piyada var ikinci səfdə,*
*Şaha keşik çəkir qabaq tərəfdə.*
*Altmış dörd xanadır oyun məclisi,*
*Qaradır bəzisi, ağdır bəzisi.*
*Sakit gedə bilər şah xana-xana,*
*İrəli, ya geri, bütün dörd yana.*
*Vəzir həm çəp gedər, həm də düzünə,*
*Meydanda açıqdır hər yan üzünə.*
*Atların yürüşü olar çətəndaz,*
*Toplarsa, düz gedər çəpinə vurmaz.*
*O iki xananı adlayar birdən,*
*Sağdan-sola düşər qalxdığı yerdən.*
*Onda mat bil onu, son zamanıdır,*
*Əsirdir, dünyadan köçmək anıdır.*

Dünyaca məşhur müasir ədəbiyyatın nümayəndələri də şahmatdan təsirlənərək bir sıra əsərlər yazmışlar. Xüsusilə XX əsrin görkəmli ədəbi simalarından olan Stefan Sveyq psixoloji janrda qələmə aldığı və şedevrlərdən hesab olunan "Şahmat" əsərini Braziliyada sürgündə olarkən qələmə almışdır. Qeyd edim ki, əvvəlcə 1942-ci ildə Argentinanın paytaxtı Buenos-Ayresdə 250 nüsxə ilə buraxılan əsər daha sonra 1944-cü ildə ingilis dilinə tərcümə edilərək Nyu-Yorkda nəşr olunmuşdur. Bu günə qədər Almaniyada əsərin 1 milyon 200 mindən çox nüsxəsi satılmışdır.

### *Şahmat həyatın özüdür*

İdman sağlam həyatın bir parçasıdır. Həyatın dərkində, ünsiyyətin qurulmasında, düşünmə qabiliyyətinin inkişafında son dərəcə əhəmiyyətlidir. Valideynlər övladlarının fiziki, əqli və emosional inkişafını təmin etmək üçün onların idmanın bir sıra növləri ilə məşğul olmalarını istəyir. Əyləncəli və zehni inkişaf etdirən idman növü olan şahmat sayəsində insanın ətrafını tanıması və onlarla ünsiyyət qurması daha da asanlaşır. Şahmat ustası, qrossmeyster Yevgeni Vasyukovun dediyi kimi: "Şahmat böyük həyatın kiçik modelidir". Şahmatı digər idman növlərindən fərqləndirən əsas cəhət ətraf mühitlə əlaqə qurmaq üçün əla vasitə olmasıdır. Şahmat milyonlarla fərqli kombinasiya, ardıcıllıq, ehtimal, hesablama, strategiya, hücum, müdafiə, səbir, zəka və diqqət tələb edir. Həyatda da, şahmatda da əsas şey mübarizədir. İdmanın bu növü insanda idarəetmə bacarığını üzə çıxarır və oyunda olduğu kimi, həyatda da bir addım öndə olmaq üçün hədəflərin olması və məqsədə çatmaq üçün mövcud olanlardan səmərəli istifadə edilməsini öyrədir. Həmçinin heç bir hədəfi, planı olmayan bir insan üçün nə oyunun, nə də həyatın heç bir mənasının olmadığını bizə söyləyir.

Şahmatda bəzən bir şey əldə etmək üçün başqa bir şey qurban verməlisən. Həmişə irəli getmək olmur. Bəzi anlarda geri addım atmalı olursan. Ancaq hər addımı düşünmək lazımdır. Seçimləri ağıllıca etməli, strateji davranmalısan. Hədəfə çatmağın bir yolu yoxdur. Fərqli manevrlər də edə bilərsən. Yorulmadan, sıxılmadan, təkrar-təkrar cəhd etməlisən. Çünki həyatda olduğu kimi, burada da imkanlar sonsuzdur. Hər fiqurun öz mövqeyi və əhəmiyyəti var. Heç bir insan real həyatda əhəmiyyətsiz olmadığı kimi, şahmat lövhəsində də heç bir fiqur əhəmiyyətsiz deyil. Piyada belə, vəzir olmaq potensialına malikdir. Şahmatçı, eyni zamanda bəstəkar və musiqiçidir. Yaradıcı olmalıdır. Etdiyiniz hər hərəkətin bir nəticəsi var və siz buna qatlaşmalısınız. Beləliklə, sizə məsuliyyəti öyrədir bu oyun. Bu cəhətdən baxdığımızda şahmat, həqiqətən, dünyanın ən stresli oyunlarından biridir, desək, yanılmarıq.

Şahmat haqqında dahilər tərəfindən söylənilən maraqlı fikirlərdən bir neçəsini diqqətinizə çatdırmaq istəyirəm. "Şahmatın əsası onun nə olduğunu düşünməkdir" – Devid



Bronsteyn, "Şahmat analiz sənətidir" – Botvinnik, "Yaxşı oyunçunun həmişə yaxşı şansı olur" – Kapablanka, "Yaxşı gediş görəndə, gözləyin, daha yaxşısını axtarın" – Em. Lasker, "Səhvlər taxtanın hər yanında edilməyi gözləyirlər", "Oyunun qalibi əvvəlcədən səhv edən oyunçudur" – Tartakouer, "Şahmat taxtası insan zehninin gimnastika zalıdır" – Paskal.

### *Dahilər və şahmat*

Məşhur şahmatçı Morfi, eyni zamanda 3 oyunçu ilə, rus şahmatçısı Alyoxin 32, Argentina qrossmeysteri Miquel Naydorf 45 oyunçu ilə oynamışdı. 1960-cı ildə macar şahmatçısı Yanoş Freş şahmat taxtasına baxmadan 52 oyunçu ilə oynamışdır. Ona qarşı 4 ustalığa namizəd, 12 birinci, digərləri isə 2 və 3-cü dərəcəli şahmatçılar oynamışlar. Yanoş Freş bu oyunlardan 31-ni qazanmış, 18-ni heç-heçə qurtarmış, yalnız 3 oyunda məğlub olmuşdur. Bu seans 13 saata yaxın bir müddətdə keçirilmiş, cəmi 4 dəfə 10 dəqiqəlik tənəffüs verilmişdir. Qeyd edim ki, bu oyunda Yanoş Freş 6 kiloqrama yaxın çəki



itirmişdir. D.İ.Mendeleyev də şahmat pərəstişkarı və oyunçusu idi. O yazırdı: *"Mənim üçün elm şahmat oynamaq kimidir. Odur ki, vaxtı belə əyləncələrlə keçirmək xoşuma gəlir"*.

### *Muxtar diyarda şahmatın inkişafı*

Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında şahmata maraq gündən-günə artır. Bu da təbiidir. Çünki digər idman növləri kimi, şahmatın da yüksək səviyyədə tədrisi, ustad dərslərin keçilməsi, bu sahə üzrə yerli və beynəlxalq səviyyəli yarışların təşkili insanların, xüsusilə uşaqların diqqətini çəkir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" əhalinin sağlam həyat tərzinin təmin olunması, bədən tərbiyəsi və idmana marağın artırılması, gənclərin zərərli vərdişlərdən uzaq olması baxımından mühüm əhəmiyyətə malikdir.

Muxtar respublikada hər bir sahədə olduğu kimi, şahmat üzrə də savadlı kadrların yetişdirilməsi daim diqqətdə saxlanılır. Artıq Naxçıvan mötəbər beynəlxalq yarışlara və turnirlərə yüksək səviyyədə ev sahibliyi etməklə aparıcı şahmat mərkəzlərindən biri kimi özünü təsdiqləyib. Təsadüfi deyil ki, bu gün naxçıvanlı şahmatçılar dünyanın elit şahmatçıları arasındadırlar. Ali Məclis Sədrinin dediyi kimi: ***"Bu gün Azərbaycan o ölkələrdəndir ki, şahmat dövlət səviyyəsində himayə olunur. Ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmat sistemli və ardıcıl inkişaf etdirilir. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, muxtar respublikanın rayonlarında isə uşaq-gənclər şahmat məktəbləri tikilib istifadəyə verilmiş, ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur... Artıq muxtar respublikada reytinqli şahmatçılar yetişir".*** Muxtar respublikada yüksək dərəcəli idmançıların beynəlxalq miqyaslı yarışlarda respublikamızı şərəflə təmsil etmələri üçün lazımi şərait yaradılıb. Elə bunun nəticəsidir ki, hazırda Naxçıvanda bir qrossmeyster, iki beynəlxalq, üç FİDE ustası, bir beynəlxalq və bir FİDE hakimi fəaliyyət göstərir.

Bu idman növü ilə məşğul olanlar beyinlərinin gücündən maksimum istifadə edir, düşünür, həll edir və tətbiq edirlər. Psixoloqlar tərəfindən şahmat yaddaşın möhkəmləndirilməsində effektiv vasitə hesab olunur. Təsadüfi deyil ki, altsheymer xəstəliyi ilə mübarizədə şahmat tövsiyə olunur. Tez düşünmə və qərar qəbuletmə, hadisələrə düzgün yanaşma, özünə güvənin artması, özünü yaxşı tanıma və bacarıqları üzə çıxarma, diqqətcil olmaq, fikri cəmləmək şahmatın üstünlüklərindəndir. Bu idman növü müvəffəqiyyətin yalnız sistemli və planlı şəkildə əldə edilə biləcəyini, qaydaları anlamağı və ona tabe olmağı öyrədir.




Muxtar respublikada Şahmat Mərkəzi və 7 şahmat məktəbi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərində isə şahmatın tədrisi üçün müasir siniflər ayrılıb, şahmat dəstləri ilə təmin edilib. Ümumtəhsil məktəblərində şahmatın tədrisi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən sertifikasiyada uğurlu nəticə göstərərək sertifikat almış 505 müəllim tərəfindən aparılır. Ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik və dərs vəsaiti tələbatını təmin etmək və şagirdlərin yüksək səviyyədə şahmatın incəliklərinə yiyələnmələri üçün Şahmat Federasiyası tərəfindən "Pillə-pillə" və "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" kitabları nəşr olunaraq məktəblərə paylanılıb.




Qədim diyarda gənclərin yaradıcılıq potensiallarının gücləndirilməsi, vətənpərvər ruhda tərbiyəsi, onların sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi daim diqqətdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması



haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Müxtəlif sahələrdə fərqlənən istedadlı gənclərin qabiliyyətlərinin aşkara çıxarılması və qiymətləndirilməsi, onların fəxri adlarla, qiymətli hədiyyələrlə mükafatlandırılması gənclərin daha səylə çalışmalarına şərait yaradır. Belə gənclərdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamına əsasən adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na şahmat üzrə salınan Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Nazlı Hümbətovadır. Bu günə qədər gənc şahmatçılardan dördünün adı "Qızıl kitabı"a yazılmış, onlar Ali Məclis Sədrinin aylıq xüsusi təqaüdünə layiq görülmüşlər.

Ali Məclisin Sədri demişdir: ***"Bu gün muxtar respublikada gənclərin şahmata böyük marağı vardır. Bu sahədə yaradılan şərait və federasiyanın fəaliyyətinin gücləndirilməsi bu idman növü üzrə kütləviliyi təmin etmişdir".*** 2019-cu ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbovun təşəbbüsü ilə şahmatçıların, eləcə də məşqçi-müəllimlərin bu idman növünə olan marağını daha da artırmaq, muxtar respublikada şahmatın kütləviliyini təmin etmək üçün mükafat fondu təsis edilmişdir. Eyni zamanda hər il uğur qazanan idmançı və məşqçi-müəllimlər fond tərəfindən mükafatlandırılırlar. Rayonlarda fəaliyyət göstərən şahmat məktəblərində şahmatçılar, onların valideynləri və müəllimləri ilə görüşlər keçirilir, bölgələrdə şahmatın inkişaf etdirilməsi müzakirə olunur.

Naxçıvanda şahmatın inkişafına göstərilən dövlət qayğısının və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının son illərdəki uğurlu fəaliyyətinin nəticəsidir ki, cari ilin may ayında həmin federasiyanın təşəbbüsü ilə ilk dəfə Bakıdan kənarda – Naxçıvanda keçirilən Azərbaycan çempionatı daha maraqlı və yüksək səviyyədə təşkil edilmiş, naxçıvanlı şahmatçılarımız da burada uğurla təmsil olunmuşlar. Ölkə və muxtar respublikamızın şahmat tarixində belə bir əhəmiyyətli çempionata yüksək səviyyədə ev sahibliyi edə bilmənin başlıca səbəbi məhz Naxçıvanda keçirilən daxili turnirin beynəlxalq turnir səviyyəsində təşkil olunması, eyni zamanda ənənəvi Naxçıvan Beynəlxalq Şahmat festivallarının yüksək səviyyədə təşkilidir. Qeyd edək ki, Naxçıvanın 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasına da ev sahibliyi etməsi planlaşdırılır.

*Göründüyü kimi, muxtar respublikada gələcəyin əmin əllərdə olması üçün bütün zəruri tədbirlər görülür. Gəncliyin qarşısında duran əsas vəzifə isə yaradılan bu şəraitdən səmərəli istifadə etmək, Naxçıvanın adını öz istedadları, bacarıqları ilə dünyada tanıtmaqdan ibarətdir.*

**Rəmzi İBRAHİMOV**


**İtmişdir**

Zeynalov Aydın Məmmədqulu oğlunun adına Naxçıvan şəhəri, Şahtaxtinski (Sabir 117) küçəsi, ev 22-də yerləşən fərdi yaşayış evinin 2034 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Məmmədov İlqar Vəli oğlunun adına verilmiş JN-413 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kəndində yaşamış Bağırov Rza Musa oğluna məxsus 108013001591-10301 reyestr, 190 inventar nömrəli fərdi yaşayış evinin texniki pasportu və 14.11.2016-cı il tarixli MH-0051166 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 596